# Əlçatan metro



Bakı şəhərinin sərnişindaşıma xidmətlərindən biri olan metropolitenin hər kəs üçün əlçatımlı olması məqsədilə işlərə start verilmişdir. Bununla əlaqədar olaraq liftlərin quraşdırılması mümkün olmayan stansiyalar müxtəlif avadanlıqlar, işarələr və işçi heyəti ilə təmin edilməkdədir. Yeni nəsil qatarlar istisna olmaqla digər qatarlarda əlil arabaları üçün yerlər hazırlanır. Bakı metropolitenindən istifadə etmək istəyən məhdud hərəkət imkanlı şəxslər metropoliten əməkdaşlarının onlara köməklik göstərilərək müşayiət etməsini əvvəlcədən sifariş edə bilərlər.

metro

## Sifarişin verilməsi



Aşağıdakı şəxslər metropoliten işçilərinin onları müşayiət etmələri üçün sifariş verə bilərlər:

- əlil arabası ilə hərəkət edənlər;
- qoltuqaltı ağac ilə hərəkət edənlər;
- görmə qabiliyyəti məhdud olanlar;
- eşitmə qabiliyyəti məhdud olanlar;
- uşaq arabacıqları ilə hərəkət edənlər;
- ahıllar;
- əl yükü olan hamilə qadınlar.

Metropoliten işçilərinin köməyindən yararlanmaq istəyən yuxarıda qeyd edilən şəxslər ən azı 1 (bir) saat, ən çoxu 24 (iyirmi dörd) saat əvvəlcədən metropoliten üzrə növbətçiyə

*+994 50 268 00 65*

nömrəli telefona zəng etməklə, mesaj göndərməklə və ya

*https://play.google.com/store/apps/details?id=az.besmobile.metro*

linkdə qeyd edilən mobil aplikasiya vasitəsilə xidmətə sifariş edə bilərlər. Sifarişdə hər hansı dəyişiklik və ya ondan imtina barədə məlumat ən azı 20 dəqiqə əvvəl verilməlidir.

Bu xidmət sərnişin axınının gur vaxtı səhər saat 07:00-dan 09:30-dək və axşam saat 17:30-dan 19:30-dək olan müddət ərzində həyata keçirilmir.




## Xidmətin icra edilmə ardıcıllığı




Xidmətlə bağlı sifarişlər metropoliten üzrə növbətçiyə

*+994 50 268 00 65*

nömrəli telefona zəng etməklə, mesaj göndərməklə və ya

*https://play. google.com /store/apps/ details?id =az.besmobile.metro*

linkdə qeyd edilən mobil aplikasiya vasitəsilə qəbul edilir və qeydiyyatı aparılır.

Qeydiyyat jurnalına aşağıdakı məlumatlar daxil edilir:

- Sifariş verən şəxsin adı, soyadı;
- Əlaqə nömrəsi;
- Xidmətin icrasına başlanılacaq və bitəcək stansiyaların adları;
- Xidmətin icrasına başlanılacaq vaxt.

Xidmətin həyata keçirilməsi və tamamlandığı vaxt onu icra edən əməkdaşların məlumatı əsasında metropoliten üzrə növbətçi tərəfindən jurnalda qeyd edilir.

Sifarişi qəbul edən sərnişinlərin müşayiəti üzrə növbətçi (HSMN) sifarişi verən şəxsi qarşılamaq üçün həmin yerə getməlidir. Əgər sifariş verən şəxs əlil arabası ilə gələcəksə, HSMN avadanlığı həmin yerə aparmalıdır və ən azı iki nəfərdən ibarət qrupla sərnişini qarşılayıb müşayiət etməlidir.

Sifariş icra edildikdən sonra bu barədə metropoliten üzrə növbətçiyə məlumat verilməlidir.

## Liftlərlə təchiz edilmiş stansiyalar

Yerimə imkanları məhdud, xüsusilə əlil arabasından istifadə edən şəxslər metropoliten işçilərinin köməyi və müşayiəti olmadan Bənövşəyi xəttin "Avtovağzal" və "Memar Əcəmi" stansiyalarına daxil olub oranı tərk edə bilərlər. Digər stansiyalarda lift olmadığı üçün xüsusilə əlil arabasından istifadə edən şəxslər metropoliten işçilərinin müşayiəti və köməyi ilə stansiyalara daxil olub, oranı tərk etməlidirlər.

## Sifariş icra edilərkən nəzərə alınmalıdır



Xüsusi əlil arabası ilə stansiyaya daxil olan şəxslər yalnız hərəkət istiqaməti üzrə birinci vaqonlara mindirilməli;

Xüsusi əlil arabası ilə pilləkənləri və eskalatorları düşərkən sifariş edən şəxsi ən azı iki nəfərdən ibarət qrup müşayiət etməlidir. Onlardan biri arabanın arxasında, digəri isə sürahinin əks tərəfində duraraq sifariş edən şəxsin təhlükəsizliyini təmin etməlidir.

Sərnişin platformasında əlil arabası ilə hüdud xəttini keçmək, vaqonlararası birləşmə ilə üzbəüz dayanmaq qadağandır. Xüsusi əlil arabası öncə böyük təkərləri olan tərəfdən vaqona mindirilməlidir.

Qatarda hərəkət etdiyi müddət ərzində əlil arabaları onlar üçün ayrılan xüsusi yerlərdə dayanmalı;

Platformada və ya düz səthlərdə hərəkət edərkən əlil arabasından istifadə edilməlidir (xüsusi avadanlıqdan yalnız pilləkənləri və eskalatorları düşərkən/qalxarkən istifadə edilməlidir).

www.metro.gov.az